1_Layout 1 14.11.2014 15:23 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 21 (439)

15 noyabr 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# İRAN PREZİDENTİ HƏSƏN RUHANİNİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

## Rəsmi qarşılanma mərasimi

Azərbaycan Respublikasına rəsmi səfərə gələn İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda İran Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidenti İlham Əliyevə raport verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhanini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İran Prezidentinə raport verdi.

İranın və Azərbaycanın dövlət himnləri səsləndi.

Prezident İlham Əliyev və Prezident Həsən Ruhani fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İran Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Həsən Ruhaniyə, İran nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.



Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Həsən Ruhani rəsmi foto çəkdirdilər.

## Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin təkbətək görüşü

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü olub.

Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Bu səfərin ikitərəfli əlaqələrimizin daha da möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığımızın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik bildirildi. Görüşdə ikitərəfli münasibətlərə, qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlərə dair fikir mübadiləsi aparıldı.

## Azərbaycan - İran sənədləri imzalanıb

Noyabrın 12-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin iştirakı ilə Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi olub. Azərbaycanın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ilə İranın Enerji Nazirliyi arasında Anlaşma Memorandumunu İranın "Təvani" şirkəti direktorunun müavini Davud Mənzur və Azərbaycanın Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin direktoru Akim Bədəlov imzaladılar.

Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi ilə İranın İqtisadi İşlər və Maliyyə Nazirliyi arasında iqtisadi və texniki əməkdaşlıq üzrə Anlaşma Memorandumunu İranın İqtisadi işlər və maliyyə Naziri Əli Təyyibniyə və Azərbaycanın iqtisadiyyat və Sənaye Naziri Şahin Mustafayev imzaladılar.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında sərhəd çaylarının nizamlanması və sahillərin mühafizəsi tədbirləri üzrə əməkdaşlıq haqqında Memorandumu İranın Xarici İşlər Naziri Məhəmməd Cavad Zərif və Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarov imzaladılar.

**AzərTAc**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş Komandanı ordu generalı Abdullah Atayın başçılıq etdiyi nümayəndə heyəti noyabrın 11-də ölkəmizə rəsmi səfərə gəlib.

Noyabrın 12-də səhər cənab Abdullah Atay və onu müşayiət edən şəxslər Fəxri Xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarı önünə əklil qoyub, böyük öndərin əziz xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üstünə tər çiçəklər düzülüb.

Daha sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər Xiyabanında müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda həyatlarını qurban vermiş mərd mübarizlərin şərəfinə ucaldılmış "Əbədi məşəl" kompleksini, bu yolda Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının Qardaşlıq məzarını, həmçinin Türk əsgərlərinin məzarlarını ziyarət ediblər.

Həmin gün Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov ordu generalı Abdullah Atayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları səmimiyyətlə salamlayan nazir R.Usubov dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmizin qazandığı ən böyük dəyərlər sırasında qardaş Türkiyə ilə əlaqələrin inkişafını önə çəkib, Ümummilli Lider Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun "Bir millət, iki dövlət" siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini xatırladıb.





Dövlət rəhbərlərinin siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu vurğulayan Daxili İşlər Naziri rəhbərlik etdiyi qurumun qardaş Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Komandanlığı ilə münasibətlərin daha da inkişaf etdirilməsinə böyük önəm verdiyini bildirib. O, ölkəmizdə ordu quruculuğunda, o cümlədən, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən silahlı birləşməyə çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Silahlı Qüvvələrinin, həmçinin Jandarm Komandanlığının böyük zəhməti olduğunu xüsusi vurğulayıb və bu səfərin də birgə əməkdaşlığın daha da genişlənməsinə təkan verəcəyinə əminliyini ifadə edib.

Azərbaycana ilk dəfə səfər etdiyini nəzərə çatdıran ordu generalı Abdullah Atay ölkəmizin dinamik inkişafının, günü-gündən gözəlləşməsinin onun təsəvvür etdiyindən də artıq olmasından məmnunluğunu bildirib.

Jandarm Qüvvələrinin Baş Komandanı iki ölkənin müvafiq qurumları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, Ulu Öndər Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamını xatırladaraq, Türkiyənin hər zaman Azərbaycanın yanında olacağını, onun ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəyini, əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın mənafelərinə xidmət edəcəyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

# BAŞ İDARƏDƏ GÖRÜŞ



Noyabrın 12-də Türkiyə Cümhuriyyətinin Jandarma Qüvvələri Baş Komandanı, ordu generalı Abdullah Altay Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovla görüşüb.

Nümayəndə heyətini səmimi salamlayan general-mayor Ş.Məmmədov Daxili Qoşunlarla Jandarm Baş Komandanlığı arasında daima genişlənməkdə olan əlaqələrin hər iki qurumun dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük töhfələr verdiyini qeyd edib.

Ordu generalı Abdullah Altay səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirərək, Azərbaycan Respublikasına səfərdən məmnun olduqlarını diqqətə çatdırıb. Hörmətli qonaq iki qurum arasında əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsindən məmnunluğunu ifadə edib.

Qarşılıqlı fikir mübadiləsi zəmnində keçən görüşdə Azərbaycan Daxili Qoşunları ilə Türkiyənin Jandarma Qüvvələri arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə olunub.

Sonra Daxili Qoşunların yaranma tarixi, strukturu, normativ-hüquqi bazası, təlim-tədrisin, təchizatın vəziyyəti və beynəlxalq əlaqələri barədə genişməzmunlu brifinq verilib.

Qeyd edək ki, tanışlıq məqsədi daşıyan səfər çərçivəsində Türkiyə Jandarm Qüvvələrinin baş komandanı və nümayəndə heyəti Daxili Qoşunların 67987 saylı hərbi hissəsində və Ali Hərbi Məktəbdə də olmuşlar.

# DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - DAXİLİ QOŞUNLARIN KOMANDANI GENERAL-MAYOR ŞAHİN MƏMMƏDOV GƏNC ƏSGƏRLƏRLƏ GÖRÜŞÜB

***Xüsusi olaraq vurğulanıb ki, hər bir əsgər bu çətin, lakin şərəfli yolu inamla, uğurla keçəcək, xalqımızın və Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin etimadını doğruldacaq***





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına uyğun olaraq, oktyabrın 30-da Azərbaycan Respublikasının müvafiq yaş kateqoriyasına aid vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə qəbulu başa çatıb. Sərəncamdan irəli gələn tələblər Daxili İşlər Nazirinin və Daxili Qoşunlar Komandanlığının ciddi nəzarəti altında həyata keçirilib.

Daxili Qoşunlar Komandanının müvafiq tapşırığına əsasən, gənc əsgərlərin qəbulu, yerləşdirilməsi və təlim-tədrisinin təşkili prosesində iştirak edən və bu sahəyə cavabdeh vəzifəli şəxslər tərəfindən müvafiq tədbirlərin yerinə yetirilməsi təmin olunub.

Noyabrın 2-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov gənc əsgərlərin kazarma-məişət şəraiti, təchizatı, qidalanması və sağlamlıq durumunun yoxlanılması məqsədilə qoşunların Bakı şəhərində yerləşən hərbi hissələrindən birində olub. Həmin gün Daxili Qoşunların Komandanı gənc əsgərlərlə görüşüb.

General-mayor Ş.Məmmədov çıxışına Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Vətənə, dövlətə sədaqət hissi aşılayan fikirləri ilə başladı: **"Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgəri, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir...".**

Ölkə rəhbərinin fikirlərini əsgərlərin xidmətinə verilən ən yüksək dəyər kimi diqqətə çatdıran general-mayor Ş.Məmmədov əminliklə bildirdi ki, bu gün gənc əsgər kimi sıralarımıza daxil olan hərbi qulluqçular xidmət dövründə öyrəndikləri hərbi bilikləri, qazandıqları təcrübəni dövlətimizin daha da qüdrətlənməsinə, güclənməsinə yönəldəcək, Vətənə layiqli övladlar olacaqlar.

**Əsgər həyatının özünəməxsus çətinliklərindən bəhs olunan çıxışda bir daha vurğulandı ki, Vətənini, dövlətini ürəkdən sevən, hərb elmini, etibar edilmiş silah və texnikanı dərindən öyrənən, komandir və rəislərin əmrlərini layiqincə yerinə yetirən hər bir əsgər bu çətin, lakin şərəfli yolu inamla, uğurla keçəcək, xalqımızın və Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin etimadını doğruldacaq.**

Çıxışdan sonra gənc əsgərləri maraqlandıran suallar ətraflı şəkildə cavablandırıldı.

**mayor R.Sarıyev**

# 17 NOYABR - MİLLİ-AZADLIQ HƏRƏKATININ BAŞLANĞIC GÜNÜ

**Müstəqillik əldə etdikdən sonra hər il noyabrın 17-si dövlətimiz və xalqımız tərəfindən "Milli Dirçəliş Günü" kimi qeyd edilir. 1988-ci il noyabrın 17-də xalq Bakı şəhərində Azadlıq meydanına axışmaqla 70 il Azərbaycanı müstəmləkə əsarətində saxlayan Sovet imperiyasına qarşı ilk kütləvi etiraz səsini qaldırdı.**

XX əsrin 80-ci illərinin ortalarından etibarən SSRİ-də baş verən ictimai-siyasi proseslər nəticəsində Azərbaycanın müstəqillik qazanması üçün geniş imkanlar yaranmışdı. Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlılara qarşı yönəldilmiş soyqırımı Sovet ordusu tərəfindən dəstəklənirdi. Təpədən dırnağadək silahlanmış erməni quldurları əliyalın, dinc əhalini müdhiş bir amansızlıqla qətlə yetirirdilər.

Vəzifə kreslosunu qoruyub saxlamaq naminə Moskva qarşısında acizlik göstərən o zamankı rəhbərlik xalqın və Vətənin həqiqi mənafeyinin keşiyində dura bilmirdi. Bütün bu ədalətsizliklərlə və ərazi bütövlüyünə edilən qəsdlərlə razılaşmayan Azərbaycan xalqı 17 noyabrda ayağa qalxdı. Həmin gün Sovet müstəmləkə rejimi şəraitində repressiyalara məruz qalmış milli şüur yenidən oyandı, özünüdərkə doğru bir dönüş başlandı.

Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində başlamış erməni separatizmini və terrorunu dəstəkləyən, erməniların ölkəmizə qarşı torpaq iddialarına rəvac verən, xalqımızın hüquq və mənafelərini qorumayan bir rejimə qarşı kütləvi xalq hərəkatı məhz 17 noyabrda başlandı. Həmin gün Azərbaycan xalqı bir yumruq kimi sıx birləşərək bütün dünyaya sübut etdi ki, o, azad olmağa layiq xalqdır.

Xalq hərəkatı təkcə Bakıda deyil, Naxçıvan, Gəncə və Lənkəranda da kütləvi xarakter aldı. Respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli hərəkat mövcud rejimə öz əzəmətini göstərdi. Bundan qorxuya düşən imperiya başçıları noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdilər. Komendant saatı tətbiq olundu. Lakin xalq geri çəkilmədi. Sovet rejimindən Ermənistanda və Dağlıq Qarabağda erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış "Meydan hərəkatı" tezliklə Azərbaycanın müstəqilliyinə çağıran şüarlara keçdi. Meydanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayraqları dalğalandı.

Lakin qüvvələr hələ qeyri-bərabər idi. İmperiya daxildən laxlasa da, hərbi iqtidardan düşməmişdi. Qüvvələri gələcək azadlıq mübarizəsi üçün qoruyub saxlamaq lazım gəlirdi. Dekabrın 4-dən 5-nə keçən gecə Sovet ordusu "Meydan hərəkatı"nı yatırmağa nail oldu. Minlərlə azadlıqsevər insan həbs edilərək zindanlara salındı. Lakin xalqın mübarizə əzmini qırmaq mümkün deyildi. Az sonra tarix sözünü dedi. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu.

17 noyabr isə xalqın milli-azadlıq hərəkatının başlanğıc günü - "Milli Dirçəliş Günü" kimi qeyd olunmağa başladı.

**Bu gün Azərbaycan Respublikası milli müstəqillik yolunda mətin addımlar atır, Azərbaycan Demokratik Respublikasının varisi kimi dünya dövlətlər birliyində tamhüquqlu, layiqli yer tutur. Bu işdə xüsusi xidmətləri olan Ümummilli Lider Heydər Əliyev dövlətçiliyimizin sosial, siyasi, milli-mənəvi bünövrəsinin strateji istiqamətlərini müəyyən etmiş, onun ideoloji təməlini yaratmışdır. Ulu Öndərin fikirlərilə desək, "milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bugünü və gələcəyi ilə bağlı olmalıdır".**

Azərbaycanda milli ideologiyanın yaranması heç də subyektiv meylin tələbi deyil, uzun müddətli təbii-tarixi prosesin daxili məntiqi nəticəsi və ifadəsidir. Tarixi keçmişimiz bu meyli təsdiq edir.

Azərbaycan xalqını, o cümlədən qoşunlarımızın bütün hərbi qulluqçularını əlamətdar bayram münasibətilə ürəkdən təbrik edir, onlara xoşbəxtlik, yüksək rifah və əmin-amanlıq arzulayırıq.

**"Əsgər"**

**Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən, oktyabrın 13-dən noyabrın 1-dək qoşunların Bərdə rayonunda yerləşən hərbi hissəsində artilleriya və minaatan taqım komandiri vəzifələrinə yeni təyin olunmuş zabitlərlə artilleriya ixtisas hazırlığı kursu keçirilib.**

# KURSU MÜVƏFFƏQİYYƏTLƏ BAŞA VURAN ZABİTLƏRƏ ŞƏHADƏTNAMƏLƏR TƏQDİM OLUNUB



Kursda 16077, 25033, 12565, 17074 və 16073 saylı hərbi hissələrdən müvafiq sayda hərbi qulluqçu iştirak edib.

Kurs müddətində taqım komandirlərinə artilleriya və minaatan silahların quruluşu, taktiki-texniki xüsusiyyətləri, atəş qaydaları, iş prinsipləri və qurğuların istismarı zamanı təhlükəsizlik qaydalarına ciddi riayət edilməsi tədris olunub.

Bundan əlavə, gənc leytenantlara artilleriya silahlarından atəş tapşırıqlarının yerinə yetirilməsi, atəş göstəricilərinin hesablanması, görünməyən hədəflərin dəqiqliklə məhv edilməsi, döyüşdə bölmələrin atəş dəstəyinin saxlanılması qaydaları öyrədilib. Artilleriya və minaatan bölmələrinin zabitlərilə keçirilən nəzəri məşğələlərdən sonra artilleriya silahlarından praktiki döyüş təlimləri yerinə yetirilib.

Kursun yekununda ixtisas, taktiki, texniki və fiziki hazırlıq üzrə məqbullar qəbul edilib.

Toplanış dövrünü müvəffəqiyyətlə başa vuran hərbi qulluqçulara (leytenant Elçin Qurbanov, leytenant Elmar Məmmədov, leytenant Məhəmməd Babayev, leytenant Seymur Mehralıyev, leytenant Zaur Bağışov, leytenant Samir Abdullayev) şəhadətnamələr təqdim olunub.

**baş leytenant T.Əlizadə**

# MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!

***Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu prosesini ölkə prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Silahlı Qüvvələrimizin günügündən artan qüdrəti bunu deməyə əsas verir.***

***Respublika Prezidenti tərəfindən ordu quruculuğu sahəsində aparılan islahatlar, genişmiqyaslı təmir-tikinti işləri Daxili Qoşunlarda da sürətlə həyata keçirilir. Bütün bunlarla yanaşı, döyüş hazırlığının qorunub saxlanılması da ciddi nəzarət altındadır. Qoşunların 12318 saylı hərbi hissəsində xidməti ezamiyyətdə olarkən bunun bir daha şahidi oldum.***

Hərbi hissə komandiri polkovnik Etibar İlyasov ərazidə aparılan quruculuq-abadlıq işləri barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, yeni əsgər yataqxanası, hamam-camaşırxana, əsgər yeməkxanası, tibb məntəqəsi tikilib istifadəyə tam hazır vəziyyətə gətirilib. Atəş sınaq məntəqəsində də əsaslı təmir işləri aparılıb, 1600 metr məsafədə yeni su xətti çəkilib.

Hissə komandiri görülən işlərlə yanaşı, yüksək döyüş hazırlığının, o cümlədən ciddi nizam-intizamın qorunub saxlanılmasının daimi diqqət mərkəzində olduğunu söylədi.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Mübariz Hüseynov şəxsi heyətin təlim-tərbiyəsindən danışarkən bildirdi ki, bütün kateqoriyalı hərbi qulluqçulara tərbiyəvi mövzularda kollektiv və fərdi qaydada söhbətlər aparılır. O, bu sahədə kapitan Bilal Hacıyevin əməyini xüsusi vurğulayaraq qeyd etdi ki, tərbiyə işinin təşkilində əlindən gələni əsirgəmir.

Hərbi hissənin mühafizəsi də yüksək səviyyədə təşkil olunub. Bu baxımdan komendant bölüyünün fəaliyyətini təqdirəlayiq hal kimi qiymətləndirmək olar. Bölük komandiri baş leytenant Xalid Əliyev mühafizənin etibarlı şəkildə təşkili üçün üzərilərinə düşən məsuliyyətdən bəhs etdi. Diqqətə çatdırdı ki, xidmətə təyin olunan şəxsi heyət onun rəhbərliyi altında silahlanır, tibbi müayinədən keçir və təlimat şəhərciyinə yollanır. Bölük komandiri qarovul xidmətinə cəlb olunan əsgərlərin sağlamlıqları ilə yanaşı, mənəvi-psixoloji durumlarının da başlıca amil olduğunu dedi. Çünki döyüş tapşırığını yerinə yetirən hər bir hərbi qulluqçu mənəvi cəhətdən sağlam, fiziki baxımdan dözümlü, iradəli olmalıdır. Komendant bölüyündə nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçulardan leytenant Bilal Məmmədovun, leytenant Mahir Babayevin, çavuş Zakir Soltanovun, çavuş Cavid Rzayevin, əsgərlər Alim Şücayevin, Elgün Osmanovun, Omar Dostiyevin adlarını qeyd etmək olar.

Qarovul məntəqəsində yoxlama müddətində qarovul rəisi çavuş Cavid Rzayevlə xidmətin təşkili barədə bir qədər söhbət etdik. Çavuş C.Rzayev postların vaxtlı-vaxtında dəyişilməsinə, silahların doldurulub-boşaldılmasına, təhlükəsizlik qaydalarına ciddi riayət olunmasına, o cümlədən əsgərlərin qidalanmasına, asudə vaxtlarının səmərəli keçirilməsinə ciddi nəzarət





edir. O, əsgərlər Murad Əmirşahlının, Həzrət İsayevin və Məmmədrəsul Ağabəyovun adlarını qarovulun fəalları kimi qeyd etdi.

Hərbi şəhərciyin mühafizəsinə cəlb olunan bölmələrdən biri də patrul taborudur. Patrul taborunun komandirinin tərbiyə işləri üzrə müavini kapitan Asif Cahangirov şəxsi heyətin Şirvan şəhərində yerləşən hərbi hissənin mühafizəsinə, daxili patrul xidmətinə, habelə digər naryadlara cəlb olunduğunu söylədi. Hərbi qulluqçuların döyüş hazırlığını qənaətbəxş hesab edən komandir müavini onların mənəvi-psixoloji keyfiyyətlərini önə çəkdi. Bu istiqamətdə görülən işlərdən bəhs edən kapitan A.Cahangirov hərbi qulluqçulara keçirilən nəzəri məşğələlərdən söz açdı. Məşğələlər zamanı şəxsi heyətə vəzifə borclarını yerinə yetirərkən daha ayıq-sayıq olmaları, verilən tapşırıqlara vicdanla yanaşmağı və yüksək dəqiqliklə yerinə yetirmələri kimi keyfiyyətlərin aşılandığını bildirdi. O, məşğələlərin təşkili və keçirilməsində fəallıqları ilə seçilən leytenant Fərid Həmidlinin, leytenant Elvin Dayanovun, leytenant Ceyhun Əsgərovun, leytenant Rəşad Allahverdiyevin, leytenant Təhmasib Mustafayevin adlarını çəkdi.



Daxili Qoşunların üzərinə düşən əsas vəzifələrdən biri də regiondakı ictimai asayişin, daxili sabitliyin qorunub saxlanılmasıdır. Baş verə biləcək hər hansı bir ictimai qayda pozuntusunun qarşısının alınmasına daim hazır olan dəstənin komandiri mayor Variz Nəcəfov bildirdi ki, təhkim olunmuş rayonlarda hüquqazidd əməllərin qarşısının alınması, ictimai asayişin bərpası, eləcə də daxili sabitliyin qorunub saxlanılması üzərlərinə düşən mühüm vəzifələrdəndir. Döyüş hazırlığının daima yüksək səviyyədə olmasının vacibliyini deyən dəstə komandiri praktik məşğələlərin tez-tez keçirilməsini, xüsusən də gecə təlimlərinə üstünlük verdiklərini vurğuladı: "Məhdudgörmə şəraitində məşqlər edilir ki, bu da hərbi qulluqçuların peşə vərdişlərinin artırılmasına böyük təkan verir. Praktik təlimlər əsasən daxili işlər orqanlarının əməkdaşları ilə birgə keçirilir. Şəxsi heyətlə nəzəri məşğələlər də keçirilir. Bu zaman qoşunların istifadəsində olan xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri, onlardan istifadə qaydaları şəxsi heyətin nəzərinə çatdırılır".

Kapitan Rüfət Muradov, baş leytenant Davud İsmayılov, leytenant Ehtiram Şirəliyev, baş gizir Anar İsayev və gizir Elxan Məmmədzadə vəzifə borclarının öhdəsindən layiqincə gələn hərbi qulluqçular kimi xarakterizə olundular.

**baş leytenant T.Əlizadə**

# "DÖYÜŞÇÜ" BAXIŞ MÜSABİQƏSİNİN QALİBLƏRİ SIRASINDA

**Hərbi hissələrdə özfəaliyyət kollektivlərinin təşkil etdiyi maraqlı tədbirlər, hazırladıqları rəngarəng səhnəciklər hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yaxşılaşdırılması ilə yanaşı, onların fərqli istedadlarının üzə çıxmasına da xidmət edir. Ona görə də deyə bilərik ki, hərbi qulluqçuların öz fərdi qabiliyyətlərini, bacarıqlarını nümayiş etdirmələrinə şərait yaradan bu cür kollektivlərin mövcudluğu çox önəmlidir.**

Qoşunların 16075 saylı hərbi hissəsi bu baxımdan xüsusilə fərqlənir. Bunu Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, hər il qoşunlar üzrə keçirilən özfəaliyyət kollektivlərinin vəziyyətinə baxış müsabiqəsinin nəticələrindən də aydın görmək mümkündür.

Cari ildə keçirilmiş müsabiqədə hərbi hissənin gənc istedadlardan ibarət "Döyüşçü" komandası demək olar ki, bütün rəqiblərinə qalib gəlmiş, ilk pillələrdə yer almışdır. Çünki onlar hər dəfə düşündürücü parodiyaları və musiqi nömrələri ilə bütün şəxsi heyəti ələ ala bilirlər.

Özfəaliyyət dərnəyinə gizir Bəhruz Həsənov rəhbərlik edir. Ondan başqa komandanın tərkibində yüksək aktyorluq qabiliyyətinə malik olan hərbi qulluqçular - baş çavuş Allahverdi Namazov, çavuş Şamxal Əliyev, kiçik çavuş Orxan Məmmədov, kiçik çavuş Arzu Ələsgərov və başqaları çıxış edirlər. Dərnək komanda üzvlərinin nümayiş etdirdikləri səhnəciklərlə şəxsi heyətin diqqətini cəlb etməyi, alqışlar qazanmağı həmişə bacarır. Həmin səhnəciklərin hazırlanmasında senari müəllifi və baş rejissor çavuş Orxan Məmmədovun da rolu böyükdür. Lakin "Döyüşçü"lərin məşqlərə cəlb olunmasında, səhnə dekorasiyasının qurulmasında və ən əsası iştirakçıların mənəvi cəhətdən dəstəklənməsində hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Surxay Gülməmmədovun əməyini xüsusilə vurğulamaq lazımdır. Qüsursuz xidməti ilə yanaşı, səmimiyyəti ilə də kollektivdə dərin hörmət qazanan, bütün zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçulara nümunə olan mayor S.Gülməmmədov yeri gəldikdə bir aktyor, yaradıcı insan kimi də komanda üzvləri ilə birlikdə səhnəciklərdə yer alır, istedadını nümayiş etdirir. Ümumilikdə, komandanın bütün heyəti hər zaman irəlidə olmaq, yeni-yeni uğurlar qazanmaq üçün öz üzərlərində böyük səylə çalışırlar.

"Döyüşçü" komandasına bundan sonrakı xidməti fəaliyyətlərində də nailiyyətlər və ən yüksək zirvələri fəth etməyi arzulayırıq. Necə deyərlər, "Döyüşçü" həmişə döyüşdə...

**gizir N.Rzayeva,**
**16075 saylı hərbi hissənin**
**Tərbiyə işləri üzrə bölməsində klub rəisi**

3_Layout 1 14.11.2014 15:32 Page 1



# DAXİLİ QOŞUNLARIN 20 İLLİK MUSİQİ SALNAMƏSİ: NÜMUNƏVİ - GÖSTƏRİCİ HƏRBİ ORKESTR

***Polkovnik-leytenant İlqar Novruzov: "Kollektivin ən böyük arzusu zəfər günü Şuşada, Laçında, Xankəndidə və digər işğal altında olan torpaqlarımızda qələbə marşını ifa etməkdir..."***





***Azərbaycan mədəniyyətinin mühüm bir qolu sayılan musiqimiz çoxəsrlik inkişaf yolu keçib, nəsildən-nəslə ötürülərək təkmilləşib və daha da zənginləşib. Xüsusilə XX əsrdə yaradıcılıq axtarışlarının diapazonu genişlənib, yeni-yeni janrlar, melodiya və ritm zənginliyi ilə fərqlənən müxtəlif rəqslər yaranıb.***

***Bu janrlar arasında önəmli yer tutan hərbi musiqi zamanından və məkanından asılı olmayaraq insanları daim mübarizəyə və qələbəyə səsləyib.***

***Əsrin sonlarında ölkəmizə qarşı torpaq iddiası qaldırmış erməni qəsbkarları ilə aparılan müharibə şəraitində yaranan bu nəğmələr o illərin bütün ağrı, acısını əks etdirməklə yanaşı, düşmənə nifrət, Vətənə sevgi, dövlətə sədaqət hissləri aşılayırdı. O çətin illərdə formalaşan Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestri də hərbi qulluqçularda ruh yüksəkliyini, qələbəyə inam hissini gücləndirmək üçün əlindən gələni əsirgəmirdi.***

Noyabr ayının 17-də 20 illik yubileyini qeyd edəcək hərbi orkestr fəaliyyət göstərdiyi bu zaman kəsiyində sözün əsl mənasında nümunəvi olduğunu sübut etdi. Çünki onun sıralarına daxil olan musiqiçilər nəinki peşəkar ifaları, eyni zamanda bütün varlığı ilə Vətənə, torpağa bağlı olmaları ilə də seçilirlər.

Bu ənənə yenə də davam edir. Hazırda orkestrin heyəti 115 nəfərdən ibarətdir. Onun nəzdində mahnı və rəqs ansmblı fəaliyyət göstərir. Kollektiv fleyta, qoboy, klarnet, şeypur, alt, tenor, bariton, saksofon, trombon, tuba, böyük və kiçik təbil ifaçılarından ibarətdir. Leytenant Zaur Əmiraslanov, gizir Vəsilə İbrahimova, Fidan Hacıyeva, Səlim Abbasov, Prezident təqaüdçüsü Amil Məmmədov, Zabitə Alıyeva, Zeynalabdin Kərimov, Aslan Hüseynov orkestrin solistləridirlər.

Bədii rəhbər isə Daxili Qoşunların Baş İdarəsində Hərbi orkestr xidmətinin rəisi-baş hərbi dirijor, Azərbaycan Respublikasının "Əməkdar artist"i polkovnik-leytenant İlqar Novruzovdur. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının məzunu olan polkovnik-leytenant İ.Novruzov kollektivin yarandığı ilk günlərdən öz əməyini, istedadını hərbi musiqinin inkişafına yönəldib. "Daxili Qoşunların marşı", "Ali Hərbi Məktəbin marşı", "Alay marşları", Ümümmilli Lider Heydər Əliyevə həsr olunmuş "Parlaq Günəş" əsəri, "Əsgər Anası" mahnısı məhz onun əməyinin məhsuludur.

Bu baxımdan deyə bilərik ki, hərbi dirijorumuzun Azərbaycan musiqi sənətinin inkişafında da xidmətləri, fəaliyyətləri danılmazdır. Bunun nəticəsidir ki, polkovnik-leytenant İ.Novruzov dəfələrlə həm Daxili İşlər Naziri, həm də Daxili Qoşunlar Komandanlığı tərəfindən mükafatlandırılıb. Lakin ən böyük mükafat özünün də qeyd etdiyi kimi, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən verilən "Əməkdar artist" fəxri adıdır. Əslində, bu fəxri ad onun 20 ildə çəkdiyi zəhmətin, əziyyətin ən gözəl mükafatıdır.

Hərbi orkestrin fəaliyyəti haqqında danışarkən bədii rəhbər ilk olaraq vurğaladı ki, orkestr həqiqətən də böyük inkişaf yolu keçib: "Nümunəvi-göstərici Hərbi Orkestr Daxili Qoşunlarla birgə addımlayıb, istər ən ağır və çətin, istərsə də ən əlamətdar və sevincli günlərdə şəxsi heyətin döyüş ruhunun yüksəldilməsinin şərəf borcu olduğunu dərindən dərk edib".

Ötən müddətdə kollektivin həm tərkibi, həm də yaradıcılıq səviyyəsi dəyişib, professional yönümdə formalaşıb.

Polkovnik-leytenant İ.Novruzov qeyd etdi ki, illər ötdükcə yaxşı mənada ifaçılıq dəsti-xətti ilə fərqlənən orkestrin repertuarına bu gün dünyanın dahi bəstəkarları L.Van Bethoven, V.A.Mosart, F.Şopen, P.Çaykovski, eləcə də Ü.Hacıbəyov, F.Əmirov, Q.Qarayev, S.Ələsgərov, V.Adıgözəlov, T.Quliyev kimi dahi bəstəkarların əsərləri daxil edilib: "Repertuarımızda estrada və caz musiqilərinə də müraciət olunur, lakin milli ruhlu marşlar və mahnılar daha çox üstünlük təşkil edir".

Kollektiv indiyədək yüzlərlə rəsmi tədbirlərdə, müxtəlif idarə və təşkilatlarda, mədəniyyət ocaqlarında və ölkənin televiziya kanallarında uğurlu çıxışlar edib. Lakin baş hərbi dirijor orkestrin cəbhə bölgəsində yerləşən hərbi hissələrdə təşkil edilən konsert proqramlarını ən böyük xidmətləri kimi dəyərləndirdi. O, böyük fəxr hissi ilə bildirdi ki, bu cür tədbirlər həqiqətən də hərbi qulluqçularımızın döyüş əzmini yüksəldir, qələbəyə inamı artırır.

Bu gün orkestrin normal fəaliyyəti üçün demək olar ki, hər cür şərait yaradılıb. Yeni avadanlıqlar, musiqi alətləri, gücləndirici aparatlar alınıb, yerləşdiyi bina əsaslı şəkildə təmir olunub. Bütün bunları Daxili İşlər Naziri və Daxili Qoşunlar Komandanlığının göstərdiyi xüsusi diqqət və qayğının nəticəsi kimi qeyd edən hərbi orkestrin rəisi kollektivin daima yaradıcılıq axtarışlarında olduğunu dedi: "Kollektiv peşəkarlığını artırmaq və Daxili Qoşunların adını hər zaman zirvələrdə tutmaq üçün əzmlə çalışır və bundan sonra da çalışacaqdır".

Nümunəvi-göstərici Hərbi Orkestrin bütün heyətini 20 illik yubiley münasibətilə ürəkdən təbrik edir, onlara arzularının çin olmasını - zəfər günü Şuşada, Laçında, Xankəndidə və digər işğal altında olan torpaqlarımızda qələbə marşını ifa etməyi arzulayırıq.

**leytenant X.Tağıyeva**

---

# DÖYÜŞ XİDMƏTİNDƏ ŞƏXSİ HEYƏTLƏ TƏRBİYƏ İŞİNİN TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ ÜZRƏ METODİKİ TÖVSİYƏLƏR

***Metodiki tövsiyə komandir və rəis heyətinin qarovul (döyüş) xidmətinə cəlb olunmuş şəxsi heyətə xidmətin aparılması qaydalarını öyrətmək, hərbi qulluqçulara qarovul xidmətinin və tərbiyə işinin mahiyyətini aşılamaq, vəzifəli şəxslərə qarovulda şəxsi heyətə tərbiyə işinin təşkili və aparılma qaydalarını izah etmək və onların (vəzifəli şəxslərin) döyüş xidmətinin təşkili üzrə metodiki bilik və bacarıqlarını artırmaq məqsədlərini daşıyır.***

***Eyni zamanda bu tövsiyələr qarovul xidmətində mənəvi - psixoloji hazırlığın xüsusiyətlərini, vəzifəli şəxslərin qarovul (döyüş) xidmətinin təşkilində vəzifələrini, tərbiyə iş planının hazırlanmasını, qarovul və qoşun naryadının xidmət yerlərində təbliğat və təşviqat vasitələrinin hazırlanması məsələlərini əhatə edir.***

## Qarovul xidmətində mənəvi-psixoloji hazırlığın (MPH) xüsusiyyətləri

Döyüş xidmətində tərbiyə işi Qoşunlarda dövlət siyasətinin müntəzəm olaraq həyata keçirilməsinə, şəxsi heyətin əqidə möhkəmliyinin, mənəvi sayıqlığının və döyüş hazırlığının yüksəldilməsinə, mənəvi-psixoloji vəziyyətin, şüurlu hərbi intizamın möhkəmlənməsinə, onların silaha, döyüş texnikasına və xüsusi texnikaya mükəmməl yiyələnmələrinə, xidməti-döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmələrinə yönəlir. Onun mahiyyəti müxtəlif xidməti döyüş fəaliyyəti şəraitində komandir (rəis) tərəfindən qəbul olunmuş qərarın, tapşırığın yerinə yetirilmə xarakteri, şəraitin xüsusiyyətləri, şəxsi heyətin döyüş hazırlığı və onun mənəvi-psixoloji vəziyyəti ilə təyin olunur.

Hərbi şəhərciklərin, obyektlərin qorunması üzrə qarovullarda və digər döyüş xidmətlərində MPH-ın təşkilinin xüsusiyyətləri onunla şərtlənir ki, qarovula təyin olunan bölmə daimi yerləşmə məntəqəsində xidməti-döyüş tapşırığını yerinə yetirir. Başqa yerlərdən fərqli olaraq, şəxsi heyət cinayətkar qrupların edə biləcəyi silahlı basqın və əhalinin bir hissəsinin hərbi qulluqçulara qarşı pis münasibət göstərməsi şəraitində daimi gərginlik içərisində olur. Ərazidə yerdəyişmənin məhdudlaşdırılması, bir qayda olaraq əldə silah daima hərbi şəhərcikdə və qarovulda olmaq şəxsi heyətin uzun müddət bölmənin kollektivindən ayrı olmasına gətirib çıxarır.

Bununla yanaşı, xidmətdə olarkən çevik hərəkət etmək və düşünmək, diqqətlə müşahidə etmək, vəziyyəti sərbəst qiymətləndirmək, qərar qəbul etmək və onu təcili icra etmək üçün daimi hazırlıq tələb olunur. Mövcud şərait hərbi qulluqçuları gözlənilən təhlükə barədə düşünməyə vadar edir. Bu səbəbdən də şəxsi heyətin gündəlik xidmətinin, həyatının və məişətinin əhəmiyyətli dərəcədə fiziki və mənəvi gərginliklə bağlı olması, sözsüz ki, onun psixikasına, fiziki fəallığına neqativ təsir göstərməyə bilməz.

**Yuxarıda sadalananlar qarovulda və digər döyüş xidmətlərində MPH-ın təşkilinin xüsusiyyətlərinin ciddiliyini artırır. Bir sözlə, döyüş xidmətinin xüsusiyyətləri bir qayda olaraq digər xidmətlərdən aşağıdakı hallarla fərqlənir:**

*- ekstremal vəziyyət və gərginliyin artması (həyat və sağlamlıq üçün təhlükənin artması, nəticədə qorxu və dəhşət hissinin yaranması);*

*- hərbi qulluqçuların yüksək sayıqlıq nümunələrini, bacarıqlı və qətiyyətli hərəkətlərinin nümayişi;*

*- məsuliyyət hissiyyatının artırılması (bütün çətinliklərin öhdəsindən gəlmək);*

*- mənəvi-fiziki enerjinin itirilməsi;*

*- hərbi qulluqçuların, hərbi kollektivlərin əvvəllər rast gəlmədikləri qeyri-adi, xüsusi və qəfləti tapşırıqlarla qarşılaşması.*

Bu sahədə tərbiyə işi daim, vəziyyət gərginləşdikcə daha fəal aparılmalı, məqsədyönlü, konkret, şəraitə uyğun, çevik və təsirli olmalıdır.

Xidmətdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin qorunub saxlanmasında və aradan qaldırılmasında tərbiyə işinin vacib üsullarından biri hesab olunan fərdi tərbiyə işindən istifadə etmək bütün vəzifəli şəxslərin borcudur. Yoxlayan şəxslər tərəfindən xüsusi ilə xidmətdə çətinliklərlə mübarizə apara bilməyən, xidmətə az bir müddətdə cəlb olunan və tələb olunan, ehtiyac duyulan hərbi qulluqçularla fərdi söhbətin aparılması məsləhətdir.

## Vəzifəli şəxslərin qarovul (döyüş) xidmətinin təşkilində vəzifələri Tərbiyə iş planının hazırlanması

Tərbiyə işi qarovulun şəxsi heyəti ilə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi müddətində təşkil olunur. O bütün hərbçilər tərəfindən yüksək döyüş hazırlığının saxlanılması, sayıqlığa, hərbi intizama, qanunçuluğa riayət olunması, döyüş xidmətinin nümunəvi aparılmasının təmin edilməsi məqsədini daşıyır.

**Komandirlər və onların tərbiyə işləri üzrə müavinləri hərbi şəhərciklərin, obyektlərin mühafizəsi üzrə qarovulun döyüş xidmətində MPH-ı birbaşa təşkil edir və həyata keçirir. Onların vəzifəsidir:**

*- qarovula (döyüş xidmətinə) cəlb olunan şəxsi heyətin seçilməsində, təlimatlandırılmasında iştirak etmək;*

*- şəxsi heyəti əməliyyat şəraiti barədə məlumatlandırmaq, qarşıya qoyulmuş tapşırıqları, əmr və göstərişləri, onların icra olunma qaydalarını izah etmək;*

*- şəxsi heyətlə dövlət əhəmiyyətli işlər haqqında söhbət və hüquqi-tərbiyə işi aparmaq;*

*- şəxsi heyətin mənəvi və işgüzar keyfiyyətləri nəzərə almaqla növbələrə, postlara təyin etmək və yerləşdirmək;*

*- qarovulun (qoşun naryadının) şəxsi heyətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı yüksək sayıqlıq və məsuliyyət hissi tərbiyə etmək, onlarda döyüş xidmətinin aparılması qaydalarının dərindən öyrənilməsinə həvəs yaratmaq, döyüş xidmətinin qabaqcıl təcrübəsini xidmətdə tətbiq etmək;*

*- daim şəxsi heyətin əhval-ruhiyyəsini, mənəvi-psixoloji vəziyyətini öyrənmək, onları döyüş xidməti apararkən çətinliklərin öhdəsindən gəlməyə və qətiyyətli olmağa səfərbər etmək;*

*- şəxsi heyətin döyüş xidmətinin aparılması üçün bütün zəruri əmlaklarla təmin olunmasına qayğı göstərmək;*

*- döyüş xidmətində MPH-ı təşkil etmək, zabitləri, gizirləri və fəalları tədbirlərin keçirilməsinə cəlb etmək;*

*- fəalları hazırlamaq və qarovula (qoşun naryadına) cəlb etmək, onların qabaqcıl təcrübəsini ümumiləşdirmək və tərbiyə işi tədbirlərinin keçirilməsini öyrətmək;*

*- bir və ya bir neçə sutkalıq təyin olunmuş hər bir qarovul və qoşun naryadı üçün tərbiyə işi planı hazırlamaq, orada fəalların tərkibi və yerləşməsini, hansı tədbirin, kiminlə və kim tərəfindən keçiriləcəyini göstərməkdir.*

**Döyüş xidmətinə cəlb edilən qarovulun şəxsi heyəti üçün tərbiyə işi planı tərtib edilərkən bölmə komandirlərinin tərbiyə işləri üzrə müavinləri aşağıdakı tədbirləri nəzərə almalıdırlar:**

*- respublikada və regionda baş verən əsas hadisələrin, hərbi hissə və bölmələrin həyatı barədə məlumatların, əməliyyat şəraitinin çatdırılması;*

*- təhlükəsizlik qaydalarının öyrənilməsi və məqbulların qəbul edilməsi;*

*- nizamnamələrin və xidmət üzrə təlimatların öyrənilməsi;*

*- döyüş xidməti aparılarkən qarşılıqlı yardım göstərilməsi, fərdi və qrup halında söhbətlərin aparılması;*

*- fəalların təlimatlandırılması və tapşırıqların verilməsi;*

*- ictimai-siyasi hazırlıq mövzuları üzrə materialların öyrənilməsi və təkrarlanması;*

*- bədii ədəbiyyatların mütaliəsi;*

*- dövrü mətbuatdan məqalələrin kollektiv şəkildə oxunması və müzakirəsi;*

*- respublikanın və dünyanın siyasi xəritəsinin öyrənilməsi;*

*- radio verilişlərinin dinlənilməsi;*

*- "Döyüş vərəqi"nin və "Şimşək"lərin buraxılması;*

*- stolüstü oyunların keçirilməsi;*

*- xidmətə yekunların vurulması.*

İkinövbəli, həmçinin, yarım sutkalıq təyin olunmuş qarovul və qoşun naryadında qarovul (qoşun naryadı) rəisi üçün tərbiyə işi üzrə fərdi tapşırıq tərtib edilir.

Xidmətin hazırlıq dövründə qarovul (qoşun naryadı) rəisləri, onların köməkçiləri və fəallarla təlimat məşğələsində 15 dəqiqə ərzində qanunçuluğa riayət olunması, möhkəm hərbi intizamın saxlanması, qarşıya qoyulmuş tapşırıqların keyfiyyətli icrasının təmin olunması, tərbiyə işi planında (fərdi tapşırıqda) nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə iş üsulları barəsində bölük komandirinin tərbiyə işləri üzrə müavini tərəfindən təlimat keçirilir.

**Döyüş xidmətinə hazırlıq dövründə bölmə komandirlərinin tərbiyə işləri üzrə müavinləri:**

- döyüş xidmətinə cəlb olunan şəxsi heyətlə keçirələcək tərbiyə işi planını hazırlayır;

- hərbi qulluqçuların qarovula, növbəyə, postlara seçilməsi və yerləşdirilməsində iştirak edir, döyüş xidmətinin şəraitini, xarakterini, xüsusiyyətlərini və yerinə yetirilmə qaydalarını izah edir;

- qarovulun (qoşun naryadının) fəallarını təyin edir;

- qarovul rəisinin, fəalların tapşırıq və vəzifələrini, döyüş xidmətində tərbiyə işi tədbirlərinin məzmununu, formasını, üsullarını müəyyən edir;

- fəalları lazımi ədəbiyyat, mətbuat, "Döyüş vərəqi", "Şimşək" və onların buraxılması üçün ləvazimatlarla, həmçinin, stolüstü oyunlarla təmin edir;

- müxtəlif dərəcəli hərbi qulluqçularla xidməti-döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəxsi nümunə haqqında söhbətlər aparır;

- döyüş xidmətinə nəzarət etmək üçün təyin olunmuş şəxsləri tərbiyə işinin üsulları haqqında təlimatlandırır, onların qarovulda (qoşun naryadında) tərbiyə işi tədbirlərinin keçirilməsi üzrə hazırlığını yoxlayır.

***Döyüş xidməti aparılan dövrdə komandirlər və onların tərbiyə işləri üzrə müavinləri borcludurlar:***

*- qarovulda (qoşun naryadında) hərbi qulluqçuların qarşısında duran tapşırıqların yerinə yetirilməsinə, təhlükəsizlik qaydalarına riayət olunmasına diqqət yetirmək;*

*- tərbiyə işinin səviyyəsini, zabitlərin, gizirlərin, çavuşların və əsgərlərin hərbi intizama necə riayət etməsini yoxlamaq və şəxsi heyətin mənəvi vəziyyətini öyrənmək;*

*- tərbiyə işi tədbirlərinin keçirilməsinə nəzarət etmək və tədbirlərdə şəxsən iştirak etmək;*

*- tərbiyə işinin bütün üsullarından istifadə etməklə qabaqcıl hərbçiləri, onların bacarıq və fəaliyyətlərini geniş təbliğ etmək, döyüş xidmətində yol verilmiş nöqsanlara qarşı qətiyyətlə mübarizə aparmaq;*

*- daimi olaraq hərbi qulluqçuların sağlamlığının, onların döyüş xidməti aparmaları üçün bütün zəruri vasitələrlə təmin olunmalarının, normal qidalanmalarının və istirahət etmələrinin qayğısına qalmaq.*

**Bundan əlavə, döyüş xidmətini yoxlamaq üçün ayrılmış digər vəzifəli şəxslər tərəfindən qarovulun (qoşun naryadının) tərbiyə işi planında tədbirlərin icra vəziyyətini yoxlamalı və mütləq ayıq növbənin hərbi qulluqçuları ilə söhbətlər aparılmalıdır. Tərbiyə söhbətlərinin qrup halında gündüz, fərdi söhbətlərin isə gecə vaxtı aparılması məqsədəmğvafiqdir.**

***(davamı gələn sayımızda)***

4_Layout 1 14.11.2014 15:35 Page 1



**BİZİM ŞÜAR:**

**“MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!”**

# UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. Çar Rusiyası dağıldıqdan sonra, **1918-ci ildə** Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

# MÜHƏNDİS-İSTEHKAMÇILARIMIZ TAPŞIRIĞI UĞURLA YERİNƏ YETİRİB



**Oktyabr ayının 16-da saat 15:20 radələrində Lənkəran rayon polis şöbəsindən daxil olmuş məlumata əsasən, Lənkəran şəhəri 10-cu Yalama körpüsünün yaxınlığında - dəniz sahilində 3 (üç) ədəd tank əleyhinə mina və 1 (bir) ədəd tank əleyhinə mina partladıcısı aşkar olunub. Oktyabrın 27-də isə saat 10:30 radələrində Astara rayon polis şöbəsindən daxil olmuş məlumata əsasən, Astara rayonu Kələdəhnə kəndinin dəniz sahilində 1 (bir) ədəd Tank əleyhinə idarə olunan raket (TƏİR) tapılıb.**



Müvafiq göstərişə əsasən, hərbi hissə komandirinin 1-ci müavini - Qərargah rəisi polkovnik-leytenant İlqar Məmmədov, Mühəndis və kimya xidmətinin rəisi VİE baş leytenant İlkin Yoldaşovun rəhbərliyi ilə mühəndis - istehkam manqasının şəxsi heyəti “Həyəcan” siqnalı ilə təyin olunmuş yerə göndərilib.

Mühəndis-istehkamçılarımız tapşırığı uğurla yerinə yetiriblər. Hadisə yerinə baxış zamanı 2 (iki) ədəd “TM-62 M” markalı, 1 (bir) ədəd “TM-62 P” markalı tank əleyhinə mina döyüşə yararsız vəziyyətdə aşkar olunub. 1 (bir) ədəd “MVÇ-62” markalı tank əleyhinə mina partladıcısı və 1 (bir) ədəd M 911M markalı 690379 nömrəli TƏİR isə döyüşə yararlı vəziyyətdə olduğundan təhlükəsiz əraziyə aparılaraq partlatma üsulu ilə məhv edilib.

**leytenant X.Tağıyeva**

# İDMAN

## YIĞMA KOMANDAMIZ YENƏ BİRİNCİ OLDU

*Daxili işlər orqanları arasında keçirilən yarışda 7 nəfərdən ibarət yığmamız 61 balla bütün rəqiblərini geridə qoydu*

**Azərbaycan Respublikası Daxili İşlər Nazirinin müvafiq əmrinə əsasən, oktyabr ayının 30-dan noyabr ayının 1-dək DİN-in İdman Cəmiyyətində daxili işlər orqan və hissələri arasında silahsız özünümüdafiə üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilib. Yarışda Daxili Qoşunlar polkovnik-leytenant İlqar Nəsibovun rəhbərliyi ilə 7 hərbi qulluqçudan ibarət yığma komanda ilə təmsil olunub.**

Şəxsi birincilikdə 70 kq çəki dərəsində 99713 saylı hərbi hissənin hərbi qulluqçusu **leytenant Məmmədov Alim Nazim oğlu**, 75 kq çəki dərəsində 99713 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu **çavuş Orucov Ramin Yuris oğlu**, 85 kq çəki dərəcəsində 67987 saylı hərbi hissənin hərbi qulluqçusu **gizir Allahyarov Natiq Ənvər oğlu** və 90 kq çəki dərəsində 25031 saylı hərbi hissənin hərbi qulluqçusu **leytenant Seyidov Orxan Sədrəddin oğlu** bütün rəqiblərini məğlub edərək, 1-ci yerə yüksəliblər.

Bundan əlavə, 65 kq çəki dərəsində 99713 saylı hərbi hissənin hərbi qulluqçusu **leytenant Göyüşov Şahin Aydın oğlu** və 80 kq çəki dərəsində 67987 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu **kiçik çavuş Əliyev Kamil Nurbala oğlu** 2-ci, +90 kq çəki dərəsində 16075 saylı hərbi hissənin hərbi qulluqçusu **gizir**



**Həsənzadə Zəmanət Vilayət oğlu** 3-cü pillədə qərarlaşıb.

Hərbi qulluqçularımızın topladığı xalların ümumi nəticəsinə görə, Daxili Qoşunların yığması komanda birinciliyində bütün rəqiblərini geridə qoyaraq, kürsünün ən yüksək pilləsinə sahib çıxıb. Qalib komandamızın üzvləri kubok, diplom və medallarla mükafatlandırılmışlar.

Yeri gəlmişkən qeyd edək ki, uzun müddət Daxili Qoşunların Ali Hərbi Məktəbində xidmət edən polkovnik-leytenant İ.Nəsibov bu il qoşunların Baş İdarəsində müvafiq vəzifəyə təyin edilib. Vəzifəyə yeni təyin olunmasına baxmayaraq, o, peşəkar idmançı və məşqçi kimi idman komandasının nailiyyətlərinin artırılmasında əlindən gələni əsirgəmir. Bu da bir neçə ay davam edən gərgin məşqlərin nəticəsi...

**leytenant X.Tağıyeva**

## DAHA BİR QIZIL MEDAL İTALİYADAN GƏLDİ

Daxili Qoşunlar idman sahəsində zəfərlərini davam etdirməkdədir. Hərbi qulluqçularımızın çıxış etdiyi turnirlərdə Azərbaycan bayrağının yüksəltmələri və dövlət himnini səsləndirmələri artıq ənənəyə çevrilmişdir, desək yanılmarıq.

Dünya çempionu, altı professional döyüşün qalibi, beynəlxalq qızıl kəmərin sahibi Daxili Qoşunların 67987 saylı hərbi hissəsinin hərbi qulluqçusu kiçik çavuş Elnur Həmidov daha bir uğura imza atıb.

Oktyabrın 28-dən noyabrın 2-dək İtaliyanın Karrara şəhərində idmanın kikboksinq növünün WKA versiyası üzrə dünya çempionatı keçirilib. 81 kq çəki dərəcəsində çıxış edən təmsilçimiz rəqiblərini "başıaşağı" yola salaraq, yarışın ali mükafatını qazanıb. İlk görüşündə bosniyalı idmançını məğlub edən Elnuru növbəti turda daha çətin polşalı pəhləvan gözləyirdi. Dediyinə görə, bərabər gedən döyüşdə sona qədər əzmkarlıq göstərərək polşalı nümayəndəni naqdaun etməyi bacarıb. Finalda maraqlı idmançını məğlub edən hərbçimiz münsiflər tərəfindən I yerə layiq görülərək, diplom və medalla təltif edilib.

İştirak etdiyi beynəlxalq turnirlərdə rəqib tanımayan Elnur bir daha sübut etdi ki, Azərbaycanda güclü idman ənənələri var və bu ənənələr daima qorunub saxlanılır.

**baş leytenant T.Əlizadə**

*METODİKİ VƏSAİT*

# FİZİKİ QÜVVƏNİN, XÜSUSİ VASİTƏLƏRİN, SİLAHIN VƏ DÖYÜŞ TEXNİKASININ TƏTBİQİ ŞƏRTLƏRİ VƏ HÜDUDLARI

*(əvvəli ötən sayımızda)*

***“Daxili Qoşunların statusu haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən:***

**Aşağıdakı hallarda Daxili Qoşunların hərbi qulluqçularının şəxsən və ya bölmənin tərkibində yalnız göstərilən xüsusi vasitələri tətbiq etmək hüququ var:**

– vətəndaşlara, hərbi qulluqçulara və ya daxili işlər orqanlarının əməkdaşlarına basqınları dəf etmək üçün-rezin dəyənəklər, elektroşok cihazı, gözyaşardıcı qaz, yayındırıcı təsir göstərən işıq-səs vasitələri, xidməti itlər və atlar;

– Daxili Qoşunların hərbi qulluqçusuna, daxili işlər orqanlarının əməkdaşına göstərilən qanunsuz müqavimətin qarşısını almaq üçün-rezin dəyənəklər, elektroşok cihazı, gözyaşardıcı qaz, əl qandalları, xidməti itlər;

– vətəndaşların həyatına, sağlamlığına və ya mülkiyyətinə qarşı cinayət törədərkən yaxalanmış və gizlənməyə cəhd göstərən şəxsləri tutmaq üçün-əl qandalları, xidməti itlər;

– silahlı müqavimət göstərmək niyyətində olmalarına kifayət qədər əsas olan şəxsləri tutmaq məqsədi ilə-gözyaşardıcı qaz, rezin güllələr, əl qandalları, yayındırıcı təsir göstərən işıq-səs, maneədağıdan vasitələr, suvuranlar və zirehli maşınlar, xidməti itlər;

– qaça biləcəkləri, yaxud ətrafdakılara və ya özlərinə zərər vura biləcəkləri rəftarından görünən, Daxili Qoşunların hərbi qulluqçusuna və ya daxili işlər orqanlarının əməkdaşına müqavimət göstərən tutulmuş şəxsləri polis orqanlarına aparmaq, inzibati qaydada həbs edilmiş şəxsləri silahlı müşayiət və mühafizə etmək üçün - xidməti itlər;

– hərbi şəhərciklərə, hərbi eşelonlara (dəstələrə), mühafizə olunan obyektlərə, qurğulara, yüklərə basqını dəf etmək üçün-rezin dəyənəklər, gözyaşardıcı qaz, rezin güllələr, yayındırıcı təsir göstərən işıq-səs vasitələri, elektroşok cihazı, suvuranlar və zirehli maşınlar, xidməti itlər;

– girovları, tutulmuş binaları, otaqları, qurğuları, nəqliyyat vasitələrini və ərazi hissələrini azad etmək üçün - rezin dəyənəklər, elektroşok cihazı, gözyaşardıcı qaz, rezin güllələr, yayındırıcı təsir göstərən işıq-səs vasitələri, maneədağıdan vasitələr, suvuranlar və zirehli maşınlar, xidməti itlər;

– kütləvi iğtişaşların və nəqliyyatın, rabitənin, müəssisələrin, idarələrin, təşkilatların işini pozan hərəkətlərin qarşısını almaq üçün - rezin dəyənəklər, elektroşok cihaz, gözyaşardıcı qaz, rezin güllələr, yayındırıcı təsir göstərən işıq-səs vasitələri, suvuranlar və zirehli maşınlar, xidməti itlər;

– hərbi və fövqəladə vəziyyətin hüquqi rejimi şəraitində sürücüləri dayanmaq barəsində qanuni tələbləri yerinə yetirməyən nəqliyyat vasitələrini dayandırmaq üçün, habelə cəza çəkən və ya ibtidai həbsdə olan, azadlıqdan məhrumetmə yerindən və mühafizədən qaçmış şəxsləri nəqliyyat vasitəsində yaxalayarkən - nəqliyyatı məcburi dayandıran vasitələr;

– cəzaçəkən və ya ibtidai həbsdə olan, azadlıqdan məhrumetmə yerindən və mühafizə altından qaçmış şəxsləri axtarıb tutmaq üçün - rezin dəyənəklər, elektroşok cihazı, gözyaşardıcı qaz, əl qandalları, yayındırıcı təsir göstərən işıq-səs vasitələri, maneədağıdan vasitələr, nəqliyyatı və kütləni məcburi dayandıran vasitələr, suvuranlar, zirehli maşınlar, xidməti itlər.

**9. Qaz qumbarası patronları ilə atəş açılması aşağıdakı hallarda müvafiq orqanlarla razılaşdırılır:**

– prokurorluq orqanları ilə - cinayətkarların gizləndiyi yerdə kənar şəxslər, o cümlədən, girovlar olduğu halda;

– dövlət yanğın təhlükəsizliyi orqanları ilə - cinayətkarların gizləndiyi yerdə tez alışan və partlayıcı maddələr istehsal edildikdə, yaxud saxlanıldıqda.

**10. Xarici dövlətlərin diplomatik və ya digər nümayəndəliklərinin yerləşdikləri binalarda xüsusi vasitələrin tətbiq olunması qadağandır.**

Lakin həmin dövlətlərin səlahiyyətli nümayəndələrinin müvafiq xahişi olduğu halda göstərilən binalarda xüsusi vasitələr tətbiq oluna bilər.

**11. Xüsusi vasitələri tətbiq edən hərbi qulluqçunun vəzifələri:**

– insana qarşı xüsusi vasitələri - yalnız son zərurət və ya zəruri müdafiə vəziyyətində, digər təsir imkanlarından istifadə lazımi nəticə vermədikdə, hüquq pozmanın ağırlıq dərəcəsindən və ya onu törədənin şəxsiyyətindən asılı olaraq tətbiq etmək;

– xüsusi vasitələrin tətbiq edilməsi nəticəsində zərər çəkənlərə tibbi yardım göstərmək;

– rezin gülləleri taktiki-texniki xüsusiyyətlərinə əsaslanaraq tətbiq etmək;

– əl qandalları tətbiq olunduqda hər iki saatdan gec olmayaraq kilidləri yoxlamaq;

– fəal müdafiə vasitələrinin tətbiq olunması və xüsusi əməliyyatların keçirilməsi zamanı səbrli olmaq;

– vətəndaşların sağlamlığına və əmlakına vurulması ehtimal olunan ziyanın minimuma endirilməsi üçün lazımi ölçülər götürmək;

– xüsusi vasitələrin tətbiqi barədə dərhal xidmət etdiyi hərbi hissənin rəhbərliyinə məlumat vermək.

**12. Xüsusi vasitələrin tətbiqi zamanı aşağıdakılar qadağandır:**

– qaz qumbarası patronları ilə xüsusi karabindən və siqnal tapançasından insan kütləsinə və hüququ pozan şəxsə sərrast atəş açmaq;

– havanın hərarəti mənfi olarkən suvuranlardan istifadə etmək;

– dəyənəklə insanın başına və boynuna zərbə vurmaq;

– otaqlarda və digər binalarda girovlar saxlanıldıqda maneə dağıdan vasitələri tətbiq etmək.

**Xüsusi vasitələrin tətbiqi qadağan olunur:**

– odlu silah işlətməklə basqın edildiyi və ya silahlı müqavimət göstərildiyi hallar istisna olmaqla, qadınlara, azyaşlılara, yanında azyaşlı olan, əlilliyi və digər fiziki və psixi qüsurları aşkar bilinən şəxslərə qarşı;

– tez alışan və partlayıcı maddələr hazırlanan, saxlanılan binalarda və istehsalatlarda yanğına və partlayışa səbəb ola biləcək hallarda;

– insanların daşınmasını həyata keçirən ümumi təyinatlı nəqliyyat vasitələrinə və yük avtomaşınlarına qarşı;

– motosikletə, motorollerə və mopedə qarşı;

– dağ yollarında, habelə yolların görünmə dərəcəsi məhdud olan hissələrində;

– diplomatik nümayəndəliklərə məxsus və yaxud onlar tərəfindən icarəyə götürülmüş nəqliyyat vasitələrinə qarşı;

– dəmir yolu keçidlərində, tunellərdə, körpülərdə və estakadalarda.

**13. Hərbi hissənin rəhbərliyi tərəfindən 24 saat ərzində xüsusi vasitələrin tətbiq edilməsi barədə ərazi prokuroruna məlumat verilməlidir.**

Xüsusi vasitələr tətbiq edildikdən sonra zərərçəkmişlərin, yanma ehtimalı olan mənbələrin, həyat əhəmiyyətli obyektlərin zədələnməsinin qarşısını almaq, habelə işə düşməmiş xüsusi vasitələrin aşkar olunması məqsədilə binalara və əraziyə baxış keçirilir, zəruri hallarda qazdan təmizləmə işləri aparılır.

**14. Hərbi qulluqçunun xüsusi vasitələr tətbiq etdiyi hər bir halda hərbi hissədə xidməti yoxlama aparılmalı və xüsusi vasitələrin tətbiqinin qanunauyğunluğu barədə müvafiq rəy verilməlidir.**

*(davamı gələn sayımızda)*

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000